**"Təsdiq edirəm"**

Azərbaycan Respublikasının
Vergilər Nazirliyi

**Nazir**__________________ **F. Məmmədov**

"01" fevral ________20 12 -ci il

*Vergilər Nazirliyi tərəfindən vergi borcu barədə arayışların, üzləşdirmə aktlarının, şəxsi hesab vərəqəsindən çıxarışların təqdim edilməsi*

**üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** *Vergi borcu barədə arayışların, üzləşdirmə aktlarının, şəxsi hesab vərəqəsindən çıxarışlar üzrə müraciətlər və onların cavablandırılması*

**1.2. Elektron xidmətin məzmunu:** *Bu xidmət borclu vergi ödəyicilərinin vergi borcu barədə arayışların, üzləşdirmə aktlarının, şəxsi hesab vərəqəsindən çıxarışlar üzrə müraciətlərini və onların cavablandırılmasını əhatə edir*

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *Vergi Məcəlləsinin 16.1.12-ci, 87.2-ci maddələri, Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında Azərbaycan Respublikasının Qanununun 5-ci maddəsi və Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamənin 9.17-ci maddəsi*

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** *Azərbaycan Respublikası Vergilər Nazirliyi*

**1.5. Elektron xidmətin digər icraçıları:** *Vergi borcu barədə arayışların, üzləşdirmə aktlarının, şəxsi hesab vərəqəsindən çıxarışların təqdim edilməsi yalnız Vergilər Nazirliyi tərəfindən həyata keçirilir.*

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Vergi borcu barədə arayışlar, üzləşdirmə aktları, şəxsi hesab vərəqəsindən çıxarışlar üzrə müraciətlərin elektron şəkildə (e-müraciət) qəbul edilməsi və cavablandırılması (e-cavab) üçün texniki işlər yekunlaşdırma mərhələsindədir.*

*Bununla yanaşı, vergi ödəyicisi vergi borcu barədə arayışlarını, üzləşdirmə aktlarını, şəxsi hesab vərəqəsindən çıxarışları kağız formatında qeydiyyatda olduğu vergi orqanlarından əldə edə bilər.*

**1.7. Elektron xidmətin icra müddəti:** *Vergi borcu barədə arayışlar, üzləşdirmə aktları və şəxsi hesab vərəqəsindən çıxarışlar müraciət qeydiyyata alındığı gündən başlayaraq 15 gündən gec olmayaraq təqdim edilir.*

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Vergi ödəyicisi tərəfindən edilmiş müraciət cavablandırılaraq onun elektron ünvanına göndərilir.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** *İnformativ*

**2.2. Elektron xidmət üzrə ödəniş:** *ödənişsiz*

**2.3. Elektron xidmətin istifadəçiləri:** *Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi və fiziki şəxslər.*

**2.4. Elektron xidmətin təqdim olunma yeri:** *http://www.e-taxes.gov.az/*

**2.5. Elektron xidmət barədə məlumatlandırma:**

- *http://www.e-taxes.gov.az/*
- *195 Telefon Mərkəzi*
- *AVİS Yardım Masası*
- *office@taxes.gov.az*
- *tel: 012 403-87-71*

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

*Elektron xidmətin göstərilməsi üçün hər hansı sənəd tələb olunmur.*

*Xidmət təqdim olunan elektron ünvandan müvafiq menyu vasitəsilə seçilərək qəbul edildikdən sonra müvafiq ərizə forması avtomatik olaraq sistem tərəfindən doldurulub icra olunması üçün aidiyyəti yerli vergi orqanına göndərilir*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

**3.1. İnformativ növlü elektron xidmətlər istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.**

**3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**

*Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 87.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinə müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213-cü və 213.1-ci maddələrində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən ibtidai istintaq aparıldığı zaman vergi yoxlaması ilə əhatə olunmamış dövr üzrə şəxsi vərəqədən çıxarış və üzləşmə aktı verilmir.*

**3.4. Sorğunun icrası:**

**3.4.1. Ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul şəxs haqqında məlumat;**

*Təqdim edilən müraciətlər Vergilər Nazirliyi tərəfindən qəbul edilir, qeydiyyata alınaraq ona 16 rəqəmli qeydiyyat nömrəsi verilir və aidiyyəti şöbəyə göndərilir. Aidiyyəti şöbədə sənədlərə baxılır, müraciətin növü müəyyənləşdirilir və 15 gün müddətində müraciətin növünə uyğun olaraq cavab məktubu hazırlanaraq vergi ödəyicisinin elektron ünvanına göndərilir.*

**3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

*Xidmətin yerinə yetirilməsinə nəzarəti Vergilər Nazirliyi həyata keçirir və bu prosesdə yaranan hər hansı anlaşılmazlığın aradan qaldırılması və ya metodiki dəstəyin göstərilməsi məqsədilə 195 Telefon Məlumat Mərkəzi və AVİS Yardım Masası fəaliyyət göstərir.*

**3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.6.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat;**

*Vergi borcu barədə arayışlar, üzləşdirmə aktları və şəxsi hesab vərəqəsindən çıxarışlar təqdim olunmadıqda qanunvericiliyə uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər.*